**Müşviq Hüseyn oğlu MUSTAFAYEV**
Bakı Dövlət Universiteti
Psixologiya üzrə fəlsəfə doktoru
E-mail: mustafayev76@mail.ru

**Nail Arif oğlu HƏSƏNOV**
Qərbi Kaspi Universiteti
Hüquq psixologiyası, magistrant
E-mail: nail.hesenov.00@mail.ru

# DİNDİRMƏNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Təqdim edilən məqalədə istintaq hərəkəti kimi dindirmə prosesində qarşıya qoyulmuş məqsədə çatmaq üçün dindirmənin psixoloji xüsusiyyətlərinin öyrənilməsi və dindirməni aparan şəxsin müvafiq bacarıqlara yiyələnməsinin vacibliyi vurğulanır. Məqalədə əsas məqsəd dindirmə prosesində onun psixoloji xüsusiyyətlərinin sadalanması ilə dindirmə prosesində psixoloji taktikalardan istifadə olunmasının zəruriliyinin vurğulanmasıdır. Məqalədə dindirmə prosesi həm hüquqi, həm də psixoloji baxımdan tədqiq edilir. Tədqiqatın metodu mövzu üzrə nəzəri-təcrübi imkanlardan istifadə olunmaqla dindirmənin psixoloji üsullarının tədqiq edilməsidir. Psixoloji üsullarla təsir faktiki hadisələri və cinayətin səbəblərini müstəntiqdən gizlətməyə çalışan şəxsin yalanlarının aşkara çıxarılmasında əsas taktiki hərəkətlərdən biridir. Dindirilən şəxs yalan ifadə ilə çıxış edə bilər, lakin onun ifadəsi diqqətlə nəzərdən keçirildikdə, hadisənin elementlərinə psixoloji münasibəti, davranış reaksiyaları, bədən dili, üz ifadələri, göz reaksiyaları və.s hallar peşəkarlıqla izlənildikdə, dindirmə prosesində ümumi və hüquq psixologiyasının zəruri biliklərindən məharətlə istifadə olunduqda yalanın ifşa olunması əksər hallarda qaçınılmaz olur. İstintaq isə həqiqətin müəyyən olunmasına daha çox yaxınlaşır. Tədqiqatın nəticəsi kimi dindirməni aparan şəxsin müvafiq psixoloji biliklərə malik olmasının və dindirmə prosesində həmin biliklərlə müvafiq psixoloji taktikalardan istifadə olunmasının zəruriliyi şərh edilmişdir.

**Açar sözlər**: dindirmə, dindirmənin psixoloji mahiyyəti, psixoloji təsir, peşəkar ünsiyyət, təsirin psixoloji taktikalarının əhəmiyyəti.

**DOI:** https://doi.org/10.54414/HMKB9651

**Giriş**

Dindirmə müstəntiqin birbaşa müşahidə oluna bilməyən faktların, hadisələrin və şəraitin, bu fakt, hadisə və şəraitə şahidlik etmiş şəxslərin ifadələrini qavrama yolu ilə dərketməsi üsullarından biridir. Dindirməyə müstəntiq ilə dindirilən şəxs arasında ünsiyyət kimi də baxmaq olar. Bu ünsiyyət müstəntiq tərəfindən əvvəlcədən planlaşdırılmış olur və qanun çərçivəsində dindirilən şəxsin fikri, emosional, iradi sahələrinə təsir edərək ondan şahidi olduğu fakt və hadisələr haqqında tam və düzgün məlumat almağa şərait yaradır. Dindirmənin həyata keçməsi müstəntiqdən yüksək peşəkar və psixoloji bacarıq, insanların psixologiyasını yaxşı tanıya bilmə, dindirmənin taktiki üsullarından ustalıqla istifadə edə bilmə qabiliyyəti tələb edir. Dindirmənin əsas psixoloji vəzifələri verilən ifadələrin doğruluğunu dəqiqləşdirmək, etibarlı ifadə almaq məqsədilə qanunauyğun psixoloji təsirin göstərilməsi və yalan ifadələrin aşkara çıxarılmasıdır. Cinayət törətməkdə təqsirləndirilən şəxslərin dindirilməsi prosesində yalan ifadələrin aradan qaldırılması məqsədilə psixoloji diaqnostika vasitələrindən də geniş istifadə olunur.

Dindirmə zamanı müstəntiqin əsas vəzifələrindən biri ilkin məlumat toplamaqla informasiya bazasının yaradılmasıdır. İlkin məlumatlar sırasına dindirilənin şəxsiyyəti haqqında məlumatlar aiddir. Belə ki, onun sosial statusu,

yerinə yetirdiyi sosial rollar, həyat tərzi, kollektivdəki münasibətləri və kollektivin ona olan münasibəti, stress, frustrasiya zamanı davranışı, psixofizioloji keyfiyyətləri və s. aid ola bilər. Digər tərəfdən, təqsirləndirilənin şəxsiyyətinin öyrənilməsi təkcə uğurlu dindirmənin həyata keçirilməsi üçün vacib deyil. Bu həm də ümumi istintaqa, məhkəmə zamanı ədalətli hökmün çıxarılmasına və nəticədə təqsirləndirilənin islah və yenidən tərbiyə olunmasına böyük təsir edir [1 s.5].

**Əsas Mətn**

Dindirmənin uğurlu olması daha çox keçirilmə vaxtından və dindirilən şəxsin dindirməyə çağırılmasının düzgün təşkil olunmasından asılıdır. Təcrübənin göstərdiyi kimi vaxtsız, yəni tez və ya gecikmiş dindirmə istintaqın sonrakı gedişinə mənfi təsir göstərir. Dindirmədən öncə müstəntiqin cinayət işinə aid materiallara müstəqil və sərbəst şəkildə əsaslana bilməsi, dindirilənin psixi və emosional vəziyyətinə nəzarət edərək ondan daha düzgün və tam ifadənin alınmasını təmin edə biləcək emosional-iradi vəziyyətdə olması vacib məsələlərdən biridir. Dindirmə zamanı müstəntiq eyni zamanda öz psixi vəziyyətini də tənzimləməyi bacarmalıdır. Dindirməyə prosesinin əhəmiyyətli şərtlərdən biri kimi də dindirilən şəxslə kontaktın qurulması üçün psixoloji vasitələrin işlənilməsi çıxış edir. Qeyd olunanlar dindirmə prosesində qarşıya qoyulmuş məqsədə nail olmaq və uğurlu dindirmənin həyata keçirilməsi üçün mühüm amillərdir [2 s.3].

Dindirmə psixoloji cəhətdən çox mürəkkəb istintaq hərəkətidir. İstintaq üçün onun informasiya dəyəri son dərəcə yüksəkdir, bu da psixoloqların və məhkəmə ekspertlərinin tədqiqat səylərini daim yeniləyir. Dindirmənin psixoloji mahiyyəti onun bir növ idrak fəaliyyəti olmasında ehtiva olunur. Dindirmə prosesində idrak fəaliyyəti dindirilən şəxsin müstəntiq tərəfindən birbaşa şəxsi qavrayışı ilə müşayiət olunan ünsiyyət rejimində baş verir. İstintaq hərəkəti kimi dindirmə aydın ünsiyyət xarakteri daşıyır. Dindirmə, bir qayda olaraq, ilkin istintaq hərəkəti olmaqla, obyektiv olaraq, onu araşdıran müstəntiq tərəfindən cinayətin istintaqı üçün əhəmiyyət kəsb edən məlumatın əldə olunması ilə xarakterizə olunur. Əhəmiyyətli məlumatların əldə edilməsi prosesində müstəntiqin dindirilən şəxsə psixoloji təsir göstərməsi də dindirmənin psixoloji xüsusiyyətlərinə aiddir. Dindirilən şəxsin düzgün ifadə vermək istəyindən asılı olmayaraq, onun taktiki mövqeyini başa düşmək, verilən ifadədə səhvin olub-olmaması, məlumatın unudulması və ya olmaması faktlarını müəyyən etmək üçün zəruri istintaq taktikaları seçilir.

Cinayətlərin açılmamış, təqsirin isə sübut olunmamış qalmasına əsas səbəblərdən biri dindirməni aparmağa səlahiyyəti olan şəxsin dindirilən şəxslə psixoloji əlaqə qura bilməməsidir. Bu səbəbdən dindirmənin məqsədəuyğun nəticə verməsi üçün dindirilən şəxslə psixoloji əlaqə qurulması mühüm amildir. Zahiri baxımdan sadə görünən dindirmənin mürəkkəbliyi də elə bunda ifadə olunur. Peşəkar dindirmə yalnız qanun və onun tətbiqi mexanizmlərini deyil, həm də gündəlik təcrübəni, insanın fərdi yaş xüsusiyyətlərini nəzərə alaraq ona müxtəlif təsir tədbirlərini şərh etmək və dəyişdirmək bacarığını tələb edir [3 s.172-174].

Dindirmə yüksək məharət və bacarıq tələb edən sənətdir. İstintaq hərəkəti kimi dindirmənin psixoloji əsası onun səmərəli aparılmasının vacibliyinə təsir edən mühüm amildir. Dindirmənin effektivliyi dindirməni aparan şəxsin şəxsiyyətlərarası ünsiyyət sahəsindəki bacarıqlarından asılıdır. Dindirmə həm də peşəkar ünsiyyətin növlərindən biri kimi hüquq psixologiyası sahəsində tədqiqatçıların diqqət mərkəzindədir.

Belə ki, G.Pomaz dindirmə zamanı psixoloji elmdən istifadə etməyin vacibliyini qeyd edərək, müstəntiqin dindirməsinin effektivliyinin onun taktiki üsullardan istifadə etmək bacarığından asılı olduğunu vurğulayır. Dindirilən şəxslə əlaqənin qurulması, münaqişənin qarşısının alınması, psixoloji üsullarla yalanın ifşası, dindirilənin müqavimətini aradan qaldırmaq, habelə fərdin psixoloji xüsusiyyətlərini dəqiq öyrənmək belə bacarıqlara misaldır. Qeyd olunanlar cinayət işlərinin tam araşdırılmasına kömək edir [4 s.79-80].

Bununla yanaşı, dindirmənin qanunla tənzimlənən və icazə verilən üsulları onun səlahiyyətli qurumların öz vəzifələrini həyata keçirməsi zamanı dindirilən şəxsin və başqalarının təhlükəsizliyinin təmin edilməsinin nəzərə

alınmasına əsaslanır. Bu baxımdan dindirmə prosesində qanunla qorunan prinsiplərə əməl olunmalıdır. Dindirilən şəxsin psixoloji xüsusiyyətləri nəzərə alınmalı, təsir üsullarının konkretliyi və legitimliyi qorunmalıdır.

Tam və etibarlı ifadə əldə etmək üçün dindirmənin aparılmasında əsas taktika dindirilən şəxslə psixoloji əlaqənin qurulması, onun mənfi mövqeyinin neytrallaşdırılması ilə ona psixi təsir göstərmək üsullarıdır. Dindirilənin şəxsiyyətinin öyrənilməsi ifadələrin alınması prosesində ondan əldə edilən informasiyaların xüsusiyyətlərini müəyyən etməyə kömək edir. Dindirmə zamanı dindirilənin davranış xəttinin necə olacağı müəyyən psixoloji üsullardan istifadə olunmaqla proqnozlaşdırılır. Bu da uğurlu dindirmə prosesinin təşkil olunması üçün əsas amillərdən biridir [5 s.153-156].

Taktiki baxımdan dindirmə prosesini mərhələli təşkil etmək xüsusi əhəmiyyət kəsb edir. İlkin mərhələ olan hazırlıq mərhələsində müstəntiq dindirilənin şəxsiyyətini və onun şəxsi məlumatlarını müəyyən edir. Dindirmənin bu mərhələsinin əsas vəzifəsi dindirilən şəxsə hüquq və vəzifələrinin olunması, dindirilən şəxsdən ifadə almaq üçün optimal şəraitin yaradılması və ifadənin etibarlılığının təmin edilməsidir. Bunun üçün dindirilən şəxslə psixoloji əlaqə yaratmaq lazımdır. Dindirilən şəxslə psixoloji əlaqə dedikdə, dindirilən şəxsin müstəntiqə hörmətlə yanaşdığı, onun tapşırıq və vəzifələrini dərk etdiyi, hərəkətlərində hər hansı şəxsi motivləri istisna etdiyi və müstəntiqə töhfə verməsinin zəruriliyini dərk etdiyi dindirmə mühitinin yaradılması başa düşülür. Dindirilənin aldadılması onun müstəntiqə olan inamını sarsıdır, dindirmədə konflikt ab-havasının yaranmasına şərait yaradır. Bu cür əlaqə kifayət qədər ümumi və bir çox hallarda əsaslandırılmış taktikalardan istifadə etməklə əldə oluna bilər [6 s.303].

Müstəntiq mücərrəd mövzularda danışarkən onlardan hansının dindirilən şəxsə daha yaxın olduğunu öyrənir və diqqəti onların müzakirəsinə yönəldir. Eyni zamanda, lüzumsuz olaraq dindirilən şəxsin əvvəlki məhkumluğu və onu mənfi tərəfdən xarakterizə edən məlumatlara diqqət yetirmir. Dindirilənlə sakit söhbət onun daxili gərginliyini aradan qaldırır, həyəcanını azaldır. Belə söhbət zamanı müstəntiq dindirilən şəxsin psixi, nitq və digər psixoloji xüsusiyyətləri haqqında dindirmə prosesinin növbəti mərhələsində dindirmənin taktikasını müəyyən etmək üçün vacib olan əlavə məlumatlar alır. Söhbətin məhsuldar olması üçün müstəntiq əqli cəhətdən həmsöhbətin mövqeyini tutmaq və ən əsası səmimi maraq göstərmək bacarığını inkişaf etdirir.

Növbəti mərhələ sərbəst hekayə mərhələsidir ki, bu mərhələdə dindirilən şəxs müstəntiqin təklifi ilə onun dindirilməyə çağırıldığı hadisə ilə bağlı hallar barədə məlumat verir. Sərbəst təqdimat dindirilən şəxsə diqqətini cəmləmək, onun fikrincə müstəntiq üçün vacib olan fərdi halları xatırlamaq imkanı verir. Dindirilən şəxs müstəntiqi maraqlandıran bütün məlumatları vermədikdə və ya verilən məlumat cinayət işinin materialları ilə ziddiyyət təşkil etdikdə, sualların cavablandırılması mərhələsinə keçilir. Dindirmənin bu mərhələsində dindirilən şəxsi ifadə verməyə sövq etmək üçün müxtəlif taktikalardan istifadə etmək olar.

Dindirilən şəxsdən müəyyən faktlar haqqında əlavə məlumat əldə etmək, ifadəni dəqiqləşdirmək, ifadədəki qeyri-dəqiqlikləri və ziddiyyətləri aradan qaldırmaq məqsədilə ona suallar verilir. Aydınlaşdırıcı sual tərtib edərək, müstəntiq ifadədəki uyğunsuzluqları və ziddiyyətləri müqayisə edir və dindirilən şəxsə onun ifadəsinin hansı hissəsində etibarlı hesab edilməli olduğunu izah etməyə dəvət edir. Dindirilən şəxs heç bir faktı xatırlaya bilmədiyi hallarda müstəntiq dindirilən şəxs tərəfindən qavranılan faktları bərpa etmək üçün assosiativ xarakterli məlumatları canlandırmaq məqsədi daşıyan suallar tərtib edir. Dindirilən şəxsin bu və ya digər səbəbdən yanlış məlumat verdiyinə inanmaq üçün əsas olduqda, müstəntiq dindirilən şəxsin ifadə etdiyi hadisənin və ya faktın dərk edilməsi üçün şəraitin aydınlaşdırılmasına, habelə məlumatın digər mənbələrinin müəyyən edilməsinə yönəlmiş suallar verməklə yaranmış fərziyyəni yoxlayır. Dindirilən şəxsin şərəf və ləyaqətinin alçaldılması, yalançı ifadə verməyə, böhtan atmağa və özünü ittiham etməyə məcbur edilməsi, təhdid, şantaj, fiziki və mənəvi zorakılıqla müşayiət olunan dindirmə taktikalarının istifadəsi yolverilməzdir və qanunla qadağan olunur.

Müstəntiq ünsiyyət bacarıqlarına, psixoloji biliyə, həm situasiyanı, həm də situasiyanın xüsusiyyətlərini öyrənmək və nəticədə dindirmə prosesini qurmaq bacarığına malik olmalıdır. Qeyd edilməlidir ki, bu sahədə fəaliyyət göstərən praktiki işçilərin təcrübəsi ümumiləşdirilməlidir, çünki təcrübənin vahidliyi zəruri amildir [7 s.79-83].

Dindirmə zamanı psixologiya elminin praktiki tətbiqinin əhəmiyyətinə gəldikdə, qeyd olunmalıdır ki, dindirmənin səmərəli aparılması üçün təqsirləndirilən şəxsin, şübhəlinin və zərərçəkmişin psixoloji xüsusiyyətlərinin dəqiq müəyyən edilməsi vacibdir. Belə ki, şübhəli və təqsirləndirilən şəxsin dindirilməsi şahidin və zərərçəkmişin dindirilməsindən fərqlənir. Bu da psixoloji əlaqənin qurulması mərhələsində nəzərə alınmalıdır. İstintaqın əvvəlində təqsirləndirilən şəxsin əməkdaşlıqdan imtina etməsinə tez-tez rast gəlinir. Bu zaman müstəntiq təqsirləndirilən şəxsin mövqeyinin yanlış olduğuna inandırmaq, şəriklərinin artıq ifadə verdiyini elan etmək və.s üsullardan istifadə etməklə dindirilən şəxsə psixoloji təsir göstərməlidir.

Şübhəli şəxsin dindirilməsinin özəlliyi ondan ibarətdir ki, müstəntiqdə onun şəxsiyyəti haqqında kifayət qədər məlumat olmur və onun təqsirinə dair sübutlar toplanmamışdır. Buna görə də şübhəli şəxs istintaqda onun təqsirinin sübutu olub-olmadığını anlamaq üçün müdafiə taktikasını seçə bilər. Buna görə də, səmərəliliyi artırmaq üçün vəziyyəti təhlil etməyə kömək edəcək məlumat toplamaq, dindirilən şəxsin şəxsi xüsusiyyətlərini öyrənmək, onun həyat tərzi, sosial vəziyyəti, yaşayış şəraiti və onun formalaşmasına təsir edən hadisələr haqqında məlumat toplamaq lazımdır.

Dindirilən şəxs törədilmiş cinayətə, eləcə də ədalətə münasibətindən asılı olaraq müxtəlif psixi vəziyyətlərdə ola bilər. Onun vəziyyətləri şəxsi mövqeyi, mənəvi dəyərlər sistemi və cinayətin sübut dərəcəsinin qiymətləndirilməsi ilə müəyyən edilir. Müstəntiq zərərçəkmişlə qarşılıqlı əlaqədə olarkən nəzərə almalıdır ki, onun psixi vəziyyətləri ekstremal (stressli, affektiv, məyus) olur və onun əks etdirici-tənzimləyici sferasında ciddi dəyişikliklərə səbəb olur. Məsələn, hadisələrin travmatik təsiri nəticəsində qurban zaman intervallarını şişirdə bilər.

Qurbanın psixi vəziyyətlərindəki dəyişikliklərin ardıcıllığını yadda saxlamaq lazımdır. O, baş verənləri təkrar-təkrar xatırlayaraq, beyində sabit həyəcan ocaqlarını təyin edərkən, hadisənin təfərrüatlarını aktiv şəkildə bərpa edir. Affektiv halların aktuallaşması bəzən psixi gərginlik vəziyyətinin yaranmasına gətirib çıxarır ki, nəticədə qurban qeyri-ixtiyari olaraq psixotravmatik şəraiti "tərk edir". Dindirmə aparan şəxs psixoloji əlaqəni saxlamaq üçün bu kimi vəziyyətlərində çox diqqətli olmalıdır [8 s.257-260].

A.M. Stolyarenko psixoloji əlaqənin qurulması məqsədinə çatmağın effektiv yollarını araşdıraraq qeyd edir ki, müstəntiq müasir ünsiyyət psixotexnologiyalarının hipnoz, neyrolinqvistik proqramlaşdırma və s. kimi elementlərindən istifadə edə bilər. Effektiv üsullardan biri də dindirilən şəxsin şüuraltı inamının tənzimlənməsi və formalaşdırılmasıdır. Belə ki, müstəntiq dindirilən şəxsin "dalğasına" uyğunlaşmalı, onunla başa düşülən bədən dilində, bioritmlər və düşüncə prosesinin tempi ilə ünsiyyət qurmağı, dindirmə zamanı qaçılmaz ünsiyyət maneələrini dəf etməyi bacarmalıdır [9 s. 288].

Psixoloji əlaqə yaratmaq, saxlamaq və inkişaf etdirmək üçün dindirilən şəxslə söhbət zamanı əməl edilməli olan ümumi psixogigiyenik prinsiplər mövcuddur. Belə prinsiplərə mövqelərin bərabərliyindən ibarət olan uyğunluq və səmimilik, ünsiyyət prosesində həmsöhbətə empatiya ifadə etmək, onun davranışını, xüsusən də mənfi cəhətləri qiymətləndirməkdən yayınmaq, həmsöhbətə hörmətli münasibət prinsiplərini misal göstərmək olar.

Psixoloji əlaqənin qurulması dindirməyə mane olan psixoloji maneələrin aradan qaldırılması ilə təmin edilir. İlk növbədə dindirilən şəxsin maraqlarına zidd olan faktlar müəyyən edilməlidir. Bundan sonra istintaqa qarşı müqavimətin aradan qaldırılması problemi kontekstində bir sıra istintaq hərəkətləri və digər tədbirlər həyata keçirilir. Beləliklə, dindirmə prosesinin iştirakçılarının fərdi uyğunsuzluğu maneəsi, emosional maneə, mənfi emosiyalara səbəb olan zehni gərginlik aradan qaldırılır.

Psixologiyada fərdi uyğunsuzluq maneəsi aşıla bilən hesab olunur və ünsiyyətin ümumi

məqsəd və vəzifələrinin dəqiq müəyyən edilməsi, başqa bir insanın şəxsiyyət xüsusiyyətlərinə uyğunlaşma ilə aradan qaldırılır. Dindirilən şəxsin psixologiyasını, onun əsas psixoloji xüsusiyyətlərini bilmək və münaqişəyə gətirib çıxaran olan səbəbləri başa düşmək fərdi uyğunsuzluq maneəsini aradan qaldırmağa kömək edə bilər [10 s.166].

Emosional maneə, dindirmə zamanı həm müstəntiqin, həm də dindirilən şəxsin emosionallıq dərəcəsindən asılı olmayaraq, obyektiv olaraq araşdırılan cinayətin özü ilə əlaqəli olan psixoloji gərginlik səbəbindən daim mövcud olur. “Danış, mən səni diqqətlə dinləyirəm”, “Mən sənin hisslərini başa düşürəm”, “Sənə kömək etmək istəyirəm” və s. kimi ifadələrlə müstəntiq dindirən şəxsə emosional dəstək verir və sözügedən gərginlik qaldırılır.

Duyğular səviyyəsində açıq mövqe nümayiş etdirməklə, o cümlədən göz təması, əllərin açıqlığı (eyni zamanda, ovuclar həmsöhbətə bir qədər açılmış vəziyyətdə), ayaqların xüsusi mövqeyinə diqqət etməklə və.s taktikalarla etimad əldə edilə bilər. Məsələn, sağ ayağın həmsöhbətə doğru uzanması şüuraltı olaraq həmsöhbətə və söhbət mövzusuna böyük marağın əlaməti kimi qəbul edilir. Bundan əlavə, dindirilən şəxslə dindirən arasındakı məsafə böyük əhəmiyyət kəsb edir.

İstintaq taktikası düzgün ifadə almaq üçün dindirilən şəxsə qanuni psixoloji təsir göstərmək üçün bir çox müxtəlif üsul və vasitələri özündə ehtiva edir, məsələn: inandırmaq, dindirilən şəxsin müsbət şəxsiyyət xüsusiyyətlərindən istifadə etmək, "yalanların boğulması" üsulları və gözləmə, əfsanə fərziyyəsi, qəfillik , ardıcıllıq, stressin aradan qaldırılması, diqqəti yayındırma, müstəntiqin hadisə barəsində məlumatlı olması. Yalan ifadənin diaqnozu üçün yuxarıda göstərilən psixoloji taktikalardan istifadə edilir [11 s.294].

Çox sayda taktikalarda insana təsir edən müxtəlif elementlər var. Seçilmiş mövzu üzrə nəşrlərin tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, dindirmə zamanı tətbiq olunan psixoloji üsulları seçərkən ilk növbədə bu və ya digər texnikanın və ya texnikanın kimə tətbiq olunacağı sualını qoymaq lazımdır. Çünki şahidlərin dindirilməsinin psixologiyası şübhəli, hətta təqsirləndirilən şəxslərin dindirilməsinin psixologiyasından açıq şəkildə fərqlənir. Həmçinin, yetkinlik yaşına çatmayan şəxslərin və cinsi zorakılıq qurbanlarının dindirilməsi psixologiyasının özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Buna görə də, psixoloji üsullar toplusundan optimal variantı seçərkən, müəyyən bir vəziyyətin xüsusiyyətlərini və dindirilən şəxsin hadisədəki rolunu rəhbər tutaraq ümumidən xüsusiyə keçmək lazımdır.

Unudulmamalıdır ki, bəzi insanlar digər insanların psixologiyasını yaxşı bilirlər və dindirən şəxsin davranışının müəyyən məqamlarına əsaslanaraq, hansı məlumatların istintaqa məlum olduğunu, hansıların isə məlum olmadığını təxmin etməyə müvəffəq olurlar. Mövcud texnika və üsullardan ehtiyatla istifadə olunmalı, dindirilən şəxsin davranışlarına və ifadələrinə nəzarət edilməlidir.

Belə ki, dindirmənin effektivliyi dindirən şəxslə dindirilən şəxs arasında psixoloji əlaqələrin qurulması ilə əldə edildiyindən, cinayət prosesində psixoloji biliklərdən fəal, psixoloji üsullardan isə düzgün və səriştəli istifadə məqsədilə müstəntiqlərin xüsusi nəzəri biliklərə yiyələnməsinin vacibliyi böyük əhəmiyyət kəsb edir. Müstəntiqlər həm ümumi psixologiyanın, həm də hüquq psixologiyasının müvafiq metodlarını müntəzəm öyrənməli və onların tətbiqi bacarıqlarını qoruyub saxlamalıdırlar.

Dindirmənin müvəffəqiyyətini təmin etmək üçün xüsusi əhəmiyyət kəsb edən amil onun kommunikativ tərəfidir. Yəni ümumi ünsiyyət üçün əlverişli olan istintaq hərəkətinin psixoloji atmosferi, psixoloji əlaqənin qurulması yuxarıda qeyd olunduğu kimi vacib məqamdır. Psixoloji əlaqə dindirmə zamanı elə bir münasibət səviyyəsidir ki, orada iştirak edən şəxslər bir-birindən gələn məlumatları qəbul etməyə hazırdırlar. Psixoloji əlaqənin yaradılması istintaq hərəkətinin əlverişli psixoloji mühitinin yaradılmasıdır ki, bu şəraitdə dindirilən şəxs daxili, psixoloji cəhətdən dialoqda iştirak etmək, müstəntiqi dinləmək, onun arqumentlərini və dəlillərini, hətta münaqişə vəziyyətində belə dərk etmək qabiliyyətində olur. Dindirilən şəxs həqiqəti gizlətmək, yalan ifadə vermək niyyətində olduqda, bu müstəntiqin həqiqəti müəyyən etməsinə mane olur. Belə olan təqdirdə, psixoloji əlaqə müstəntiqin ünsiyyət

qurmaq bacarıqları ilə həqiqətin aşkara çıxarılmasında əsas metodlardan biri kimi üstünlük təşkil edir. Dindirilən şəxsin fərdi xüsusiyyətlərini (yaşı, xarakteri, maraqları, psixi vəziyyəti, işgüzar münasibətləri və s.) nəzərə alaraq, ünsiyyətdə düzgün istiqamət tapmaq bacarığı, psixoloji əlaqə qurularkən müstəntiqin dindirilən şəxsi diqqətlə dinləməyə hazır olması, ünsiyyətdə gərginliyi aradan qaldırmaq bacarığı böyük əhəmiyyət kəsb edir.

Dindirmənin əsas məqsədi peşəkar, ağırlaşdırıcı halların axtarışı və toplanması deyildir. Belə bir yanılma müstəntiqin peşəkar deformasiyasına səbəb ola bilər. Onun qarşısında əsas vəzifə həqiqətin bərqərar olması üçün reallığı özündə əks etdirən ifadənin alınmasıdır. Peşəkar vəzifələrini yerinə yetirmək üçün müstəntiqin psixikasının keyfiyyətlərinə bir sıra tələblər qoyulur. O, müxtəlif xarici təsir amillərinə yüksək səviyyədə nevropsik həssaslığa, emosional sabitliyə, dözümlülüyə, güclü iradə və intellektual keyfiyyətlərə malik olmalıdır. Eyni zamanda, müstəntiqin fəaliyyəti qanunauyğun olmalıdır.

İstintaqı yanlış məlumatlandırmağa çalışan şəxslərin müqavimətini aradan qaldırmaq xüsusi peşəkarlıq tələb edir. İstintaqa müqavimətin aradan qaldırılması metodlarından biri olan zehni təsir üsullarının xüsusi rolu var. Belə təsir qarşı tərəfi psixoloji cəhətdən tərksilah etməyə, ona seçildiyi əks təsir vasitələrinin mənfi xarakterini anlamağa və davranış motivasiyasını dəyişdirməyə kömək edir. Qeyd edilənlər qarşı tərəfin müdafiə hərəkətlərində daxili ziddiyyətlərin aşkarlanması yolu ilə həyata keçirilir. Çox vaxt zehni təsir üsulları kəskin konflikt formasında tətbiq olunur. Bu da dindirilən şəxsin əsəbi vəziyyətinə səbəb olur ki, belə olan təqdirdə də onun əks təsir imkanlarını azaldılır. Əsas ittihamedici sübutların məyusedici təsirini gücləndirmək üçün onların dindirilən şəxsə təqdim edilməsi üçün müvafiq psixoloji hazırlıq aparmaq lazımdır.

Təsir xüsusilə ünsiyyətin və ümumilikdə insanların qarşılıqlı əlaqəsinin əvəzolunmaz elementidir. Barəsində istintaq aparılan şəxsə təsirin məzmunu və dərəcəsinin hüquqi tənzimlənməsinin qanunla qadağan olunmayan növü dindirilən şəxsin psixoloji xüsusiyyətlərinə adekvat seçildikdə dindirmə prosesində optimal ünsiyyət qurulur.

Cinayətlərin araşdırılması prosesində şəxsə təsir göstərməyin etik aspekti son dərəcə mühüm və mürəkkəbdir. Bir tərəfdən, etik standartlara və əxlaqi ənənələrə uyğun olan münasibətlər cəmiyyətin bütün üzvləri üçün məcburi hesab olunur. Digər tərəfdən, bəzi peşə fəaliyyəti növləri bir sıra etik qadağalara məhəl qoymamağı təklif edir və hətta məqsədəuyğun hesab edir. Belə ki, psixoloji rahatlıq naminə həkim ağır xəstəni aldadır, ona sağalma perspektivlərindən danışır və.s. Etik qaydalardan yayınmanın nəzərdən keçirilən formaları ümumi etika baxımından pozuntudur, lakin peşə etikası baxımından obyektiv zərurətdir. İstintaq fəaliyyəti, əsasən, peşə etikası normaları ilə tənzimlənir ki, bu da situasiyadan asılı olaraq, cinayət-prosessual qanuna bilavasitə ziddiyyət təşkil etmədikdə, barəsində təhqiqat-istintaq aparılan şəxsə hər hansı psixoloji təsirin olmasını nəzərdə tutur. Fərdi istintaq hərəkətləri aparılarkən, ilk növbədə şəxsə potensial təsir imkanlarını müəyyən etmək, bundan sonra onun psixikasının təsirə uyğunlaşmayan elementlərini aşkara çıxarmaq və belə təsir formalarını müəyyən etmək lazımdır [12 s.14-22].

Təsirə məruz qalan şəxsin şəxsi sferasını xarakterizə edən müəyyən məlumatlar öyrənilmədən onun psixikasına təsir etmək mümkün deyil. Belə ki, dindirilənin şəxsiyyətinin dəyərlər səviyyəsi onun cəmiyyətdə sosiallaşmasının nəticəsidir. Bu sosiallaşmanın göstəricisi, ilk növbədə, xarakter kimi şəxsiyyətin ayrılmaz hissəsidir, dindirilənin şəxsiyyətinin psixoloji statusunun mərkəzi vahididir. Təsirin psixoloji taktikalarının əhəmiyyəti onda ifadə olunur ki, müvafiq olaraq barəsində istintaq aparılan şəxsin şəxsiyyətinə dair bioqrafik məlumatlar müstəntiqə onun şəxsiyyətinin dəyərlər səviyyəsinə effektiv təsir göstərmə imkanını verir.

Şəxsiyyətin davranışı onun müəyyən həyat vəziyyətlərində uyğunlaşma proseslərinin təzahürüdür. Buna görə də davranış reaksiyaları dindirilənin şəxsiyyətinin münasibətlər səviyyəsinin xarakterik xüsusiyyətlərini göstərir.

Psixoloji vəziyyətin və davranış reaksiyalarının amilləri ayırd edilərək, yəni şəxsiyyətin ətraf-mühitə reaksiya elementlərinə yönəlmiş

kateqoriyalar fərqləndirilərək, fərdin psixoloji vəziyyətlərinin psixoloji statusa əsaslanan davranış reaksiyalarını daha dəqiq müəyyən etmək mümkün olur.

Təsirin effektivliyi müxtəlif üsullardan istifadə edilməklə artırıla bilər. Dindirilən şəxs tərəfindən toplanmış sübutların miqdarı haqqında şişirdilmiş fikirlər yaratmaq, dindirilən şəxsin ifadəsindən asılı olmayaraq müstəntiqin cinayət hadisəsinin hallarını müəyyən etmək bacarığının nümayiş etdirilməsi, dəlil təqdim edərkən və suallar verərkən gözlənilməzlik elementindən istifadə etmək və.s. kimi taktiki üsullardan istifadə olunmaqla təsirin effektivliyi artırıla bilər.

**Nəticə**

Dindirmə prosesində qarşıya qoyulmuş məqsədə çatmaq üçün dindirmənin psixoloji xüsusiyyətlərinin öyrənilməsi, psixoloji taktikalardan istifadə olunması və dindirməni aparan şəxsin müvafiq bacarıqlara yiyələnməsi olduqca vacibdir. Psixoloji üsullarla təsir faktiki hadisələri və cinayətin səbəblərini müstəntiqdən gizlətməyə çalışan şəxsin yalanlarının aşkara çıxarılması üçün taktiki hərəkətlərdən biridir. İstintaq hərəkəti kimi dindirmə prosesində qarşıya qoyulmuş məqsədə çatmaq üçün dindirməni aparan şəxsin müvafiq psixoloji biliklərə malik olması, dindirilən şəxsin psixoloji xüsusiyyətlərini peşəkarlıqla öyrənmək qabiliyyəti və həmin biliklərlə müvafiq psixoloji taktikalardan istifadə olunması mühüm əhəmiyyət kəsb edir.

Dindirmə prosesində dindirilən şəxsin psixoloji xüsusiyyətləri nəzərə alınmalı, təsir üsullarının konkretliyi və legitimliyi qorunmalıdır. Dindirmə prosesində qanunla qorunan prinsiplərə əməl olunması zəruridir. Dindirməni aparan şəxs ünsiyyət bacarıqlarına, psixoloji biliyə, həm situasiyanın, həm də situasiyanın xüsusiyyətlərini öyrənmək və nəticədə dindirmə prosesini qurmaq bacarığına malik olmalı, həmçinin öz psixi vəziyyətini tənzimləməyi bacarmalıdır. Müstəntiq dindirilən şəxsin "dalğasına" uyğunlaşmalı, onunla başa düşülən bədən dilində, bioritmlər və düşüncə prosesinin tempi ilə ünsiyyət qurmağı, dindirmə zamanı qaçılmaz ünsiyyət maneələrini dəf etməyi bacarmalıdır. Müstəntiqlər dindirmə prosesində istifadə olunması zəruri olan həm ümumi psixologiyanın, həm də hüquq psixologiyasının müvafiq metodlarını müntəzəm öyrənməli və onların tətbiqi bacarıqlarını qoruyub saxlamalıdırlar. Qanunauyğun formada aparılan belə dindirmə prosesi uğurlu hesab oluna bilər. Bu da həm ümumi istintaqa, həm də məhkəmə zamanı ədalətli hökmün çıxarılmasına, nəticədə təqsirləndirilənin islah və yenidən tərbiyə olunmasına böyük təsir edən mühüm amildir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Əliyev N.T., Muradov F.H., Müzəffərov R.R., "İstintaq hərəkətlərinin psixologiyası" (dərslik). Bakı, "Mütərcim", 2015. – səh. 5.
2. Деулин Д.В., Психологические средства выявления ложных показаний в процессе допроса подозреваемых (обвиняемых) в совершении экономических преступлений. М.: Наука, 2011. – с. 3.
3. Литвинов М.В., Проблемы в теории и тактике допроса. Вестник Краснодарского университета МВД России, 2015. № 4 (30). – с. 172-174.
4. Помаз Г.С., Использование возможностей психологической науки при производстве допроса подозреваемых, обвиняемых и потерпевших, философия права. М.: Эксмо, 2016. – с. 79-80.
5. Порубов Н.И., Информационная сущность допроса. Вестник Полоцкого государственного университета, 2009. № 4. – с. 153-156.
6. Бертовский Л.В., Допрос. Технологии и тактика. М.: Экзамен, 2015. – с. 303.
7. Иванова А.И., Косолапова Н.В. Юридическая психология. М. Москва, 2009. – с. 79-83.
8. Шаевич А.А., Криминалистическая тактика, юридическая психология и практика производства допроса. *Криминалистические чтения на Байкале*. Науч.-практ., Конф. Иркутск, 2015. – с. 257-260.
9. Столяренко А.М., Психологические приемы в работе юриста: практ. пособие. М.: Прогресс, 2006. – с. 288.
10. Кертес И. Тактика и психологические основы допроса. М.: Книга по требованию, 2012. – с. 166.

11 Ахмедшин Р.Л., Тактика коммуникативных следственных действий, науч. ред. Ведерников Н.Т. Томск: Издательский Дом ТГУ, 2014. – с. 294.

12. Howlett.J., Hanfland.R., Ressler.R., The violent criminal apprehension program: A progress report. FBI Law Enforcement Bulletin, 1986. V. 55. – p. 14-22.

**Мушвиг Гусейн оглу МУСТАФАЕВ**
Бакинский государственный университет
кандидат психологических наук
E-mail: mustafayev76@mail.ru

**Наиль Ариф оглу ГАСАНОВ**
Западно Каспийский университет
Юридическая психология, магистрант
E-mail: nail.hesenov.00@mail.ru

## ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ДОПРОСА

**Резюме**

В представленной статье подчеркивается важность изучения психологических особенностей допроса и приобретения соответствующих навыков у лица, проводящего допрос, для достижения поставленной цели в процессе допроса как следственного действия. Основная цель статьи - перечислить его психологические особенности в процессе допроса и подчеркнуть необходимость использования психологической тактики в процессе допроса. В статье рассматривается процесс допроса как с правовой, так и с психологической точек зрения. Метод исследования - изучение психологических методов допроса с использованием теоретических и практических возможностей по данному вопросу. Воздействие психологическими методами является одним из основных тактических действий при раскрытии лжи лица, пытающегося скрыть от следователя действительные события и причины преступления. Допрашиваемый может давать ложные показания, но когда его заявление тщательно обдумывается, когда его психологическое отношение к элементам события, поведенческие реакции, язык тела, мимика, реакция глаз и т.д. профессионально отслеживаются, когда необходимые знания в процессе допроса умело используется общая и юридическая психология, разоблачение лжи в большинстве случаев неизбежно. Следствие приблизилось к установлению истины. В результате исследования была осмыслена необходимость наличия у лица, проводящего допрос, соответствующих психологических знаний и применения соответствующей психологической тактики с этими знаниями в процессе допроса.

**Ключевые слова:** допрос, психологическая природа допроса, психологическое воздействие, профессиональное общение, значение психологической тактики воздействия.

**Mushvig Huseyn oghlu MUSTAFAYEV**
Baku State University
PhD in Psychology
E-mail: mustafayev76@mail.ru

**Nail Arif HASANOV**
Western Caspian University
Law psychology, Master's student
E-mail: nail.hesenov.00@mail.ru

## PSYCHOLOGICAL CHARACTERISTICS OF INTERROGATION

### Summary

The presented article emphasizes the importance of studying the psychological characteristics of interrogation and acquiring the appropriate skills of the person conducting the interrogation in order to achieve the goal set in the interrogation process as an investigative action. The main goal of the article is to list its psychological features in the interrogation process and to emphasize the necessity of using psychological tactics in the interrogation process. The article examines the process of interrogation from both legal and psychological points of view. The method of the research is the study of psychological methods of interrogation using theoretical and practical possibilities on the subject. Influence by psychological methods is one of the main tactical actions in revealing the lies of a person trying to hide the actual events and the reasons for the crime from the investigator. The interrogated person can make a false statement, but when his statement is carefully considered, when his psychological attitude to the elements of the event, behavioral reactions, body language, facial expressions, eye reactions, etc. are professionally monitored, when the necessary knowledge of general and legal psychology is skillfully used in the interrogation process. exposure of the lie is in most cases inevitable. The investigation is closer to determining the truth. As a result of the research, the need for the person conducting the interrogation to have appropriate psychological knowledge and to use appropriate psychological tactics with that knowledge in the interrogation process was interpreted.

**Keywords:** interrogation, the psychological nature of interrogation, psychological influence, professional communication, the importance of psychological tactics of influence.

**Daxil olub:** 02.01.2023